**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RƏŞAD ƏZİZ OĞLU MUSTAFA**

# TİFLİS ƏMİRLİYİ

**İxtisas: 5503.02 -Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2015**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qafqaz tarixi" şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
*Əməkdar elm xadimi,*
*Dövlət mükafatı laureatı,*
*AMEA-nın müxbir üzvü* **Y.M.Mahmudov**

**Rəsmi opponentlər**
*Tarix üzrə elmlər doktoru* **N.A.Əliyeva**
*Tarix üzrə fəlsəfə doktoru* **Y.H.Gözəlova**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02-"Vətən tarixi" ixtisası üzrə fəaliyyət göstərən tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "_22__" _04________2015-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi

tarix üzrə fəlsəfə doktoru **C.Ə.BƏHRAMOV**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan milli tarixşünaslığı üçün tədqiqi elmi və siyasi cəhətdən ən aktual sayılan problemlərdən biri Azərbaycan tarixinin IX-XIII əsrin I yarısı dövrünün problemlərinin öyrənilməsi məsələsidir. Ərəb xilafətinin süqutu və Azərbaycan ərazilərində müstəqil dövlət və siyasi qurumların yaranması problemi milli tarixşünaslıqda ümumiləşdirilmiş şəkildə tədqiq olunsa da, bu dövrdə yaranmış ayrı-ayrı siyasi subyektlərin tarixi indiyədək tədqiq olunmamışdır. Bu baxımdan IX-XII əsrlərdə mövcud olmuş Tiflis əmirliyinin siyasi, sosial, ictimai və mədəniyyət tarixinin tədqiqi məsələsi diqqəti cəlb edir. Digər tərəfdən, bu həm də müasir Gürcüstanın bəzi elmi və siyasi dairələrinin Azərbaycan xalqına qarşı vaxtaşırı qaldırdıqları əsassız ərazi iddialarına qarşı ortaya qoyulan əsaslı elmi cavab baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Məlumdur ki, VIII – IX əsrlərdən etibarən böyük ərazilər işğal edən Ərəb xilafəti getdikcə zəifləməyə başlayır. Məhz bu səbəbdən mərkəzdən uzaq ərazilərdə tabe olmamaq meylləri güclənməyə başlayır. Göstərilən dövr ərzində Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şirvanşahlar dövlətləri, Şəki hakimliyi, Tiflis əmirliyi, Dərbənd əmirliyi kimi siyasi qurumlar yarandı. Tədqiqat işinin əsas *predmet mövzusu* olan Tiflis əmirliyi isə mərkəzi Tiflis şəhəri olmaqla Şəki məlikliyinin və Şəddadilər dövlətinin qonşuluğunda yerləşirdi. Tiflis əmirliyinin ərazisi tarixi Loru, Pəmbək, Şəmşəddil, Borçalı torpaqlarını əhatə edirdi. Bu torpaqlar müasir Ermənistanın şimal, Gürcüstanın isə cənub ərazilərini əhatə edirdi. Tiflis əmirliyi mövzusu böyük bir elmi problem olub hərtərəfli tədqiqat tələb edir. Xüsusilə Tiflis əmirliyinin etnik mənsubiyyət məsələsi, islam və türk aləmində mədəni, siyasi mövqeyinin və rolunun müəyyənləşdirilməsi; orta əsrlərdə islam və Azərbaycan üçün sərhəd qalası olması və buraları yadelli hücumlarından qorumasında birinci dərəcəli rol oynaması, Şərq və Qərb, xristian və islam aləmi arasında ticari, siyasi, mədəni körpü rolunu oynaması kimi əhəmiyyətli aspektlər təkcə Azərbaycan tarixinin deyil, islam, türk və Qafqaz tarixinin tədqiqində də mühüm əhəmiyyətə malikdir. Buna görə də dissertasiyanın ana xəttini təşkil edən Tiflis əmirliyinin tarixinin tədqiqi problemini günümüzün şərtləri aktual edir. Azərbaycanın tarixi torpaqlarında yerləşən Tiflis əmirliyinə daxil olan torpaqların hal–hazırda başqa respublikaların ərazisində yerləşməsi və bu respublikalardakı bəzi maraqlı dairələrin tarixi saxtalaşdırma və assimilyasiya siyasəti, bu ərazilərin bir çoxunda indiki

dövrdə də azərbaycanlıların say etibarilə üstünlük təşkil etməsi mövzunu aktual edən səbəblərdəndir. Müasir Azərbaycan Respublikasına qərb, şimal–qərb və şimal qonşuları tərəfindən ərazi iddialarının kəskinləşməsi, XX əsrdə Azərbaycanda türk varlığı əleyhinə və Azərbaycan tarixi əleyhinə qarşı sistemli aparılan siyasət nəticəsində həmən ərazilərdə, xüsusilə tarixi Azərbaycan ərazisi olan müasir Ermənistan Respublikası ərazisindən azərbaycanlılar dədə-baba yurdlarından köçürülmüş, maddi–mənəvi abidələri məhv edilmişdir. Ərazisinin 20%-dən artıq hissəsinin işğal olunduğu bir zamanda Azərbaycan Respublikasında bu məsələni araşdırmaq xüsusilə zəruridir. Hətta bir sıra gürcü mənbələrində belə bu ərazilərdə tarixən türklərin yaşamasına, Tiflis şəhəri ərazisində indinin özündə də türk mənşəli toponimlərin mövcud olmasına, Tiflisin cənubuna qədər olan ərazilərdə azərbaycanlıların kompakt məskunlaşmasına baxmayaraq bir sıra gürcü tədqiqatçılar tərəfindən əmirliyin tarixinin və mənşəyinin saxtalaşdırılması davam edir, eyni zamanda əmirliyə aid maddi–mədəniyyət nümunələrinə biganə münasibət göstərilir və hətta sistemli şəkildə bu abidələr talan edilir. Məhz bu səbəblər Tiflis əmirliyinin tarixi, mədəniyyəti, dini və milli mənşəyi, ərazisi, sərhədləri məsələsinə xüsusi diqqət yetirməyi aktual və zəruri edir.

**Mövzunun xronoloji çərçivəsi.** Tiflis əmirliyi IX-XII əsrlərdə mövcud olmuşdur. Lakin, əmirliyin etnik mənsubiyyət məsələsi buraya antik dövrə aid olan məlumatlara diqqət ayırmağı tələb edir. Tiflis əmirliyi işğal edildikdən sonra da bu ərazidə müsəlman-türklər, o cümlədən qıpçaqlar fəal siyasi, iqtisadi, mədəni rol oynadıqları üçün şəhər özünün müsəlman-türk simasını gürcü işğalı altında olmağına baxmayaraq qoruyub saxlamışdı. Buna görə tədqiqat işinin xronoloji çərçivəsi XIII əsrin əvvəlinə qədər–monqol yürüşlərinin başlanmasına qədər uzadılmışdır. Beləliklə, tədqiqat işinin xronoloji çərçivəsi antik dövrdən VII əsrə qədər fraqmentar, bütövlükdə isə ərəb yürüşlərinin başladığı VII əsrdən monqol yürüşlərinin başladığı XIII əsrə qədərki dövrü əhatə edir.

**Mövzunun araşdırılma səviyyəsi.** Azərbaycan milli tarixşünaslığında Tiflis şəhərinin və əmirliyinin ilk tədqiqatçılarından biri tarix elmləri doktoru, akademik Nailə xanım Vəlixanlıdır. 1974-cü ildə ərəb mənbələri ilə bağlı monoqrafiyasında ərəb coğrafiyaçılarının qeydlərində Tiflis şəhərinin demək olar ki, bütün mənbələrdə Arran şəhəri olduğunu qeyd etmişdir.[1] Nailə Vəlixanlı məhz bu məlumatlara əsaslanaraq 1987-ci ildə "Azərbay-

[1] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. B.: Elm, 1974. s.18, 61, 90, 110, 130

can VIII-IX əsrin I yarısında" adlı müfəssəl xəritə tərtib etmiş və burada haqlı olaraq Tiflis şəhərini Azərbaycanın tərkibində göstərmişdir.[1]

Azərbaycanın milli tarixşünaslığında Tiflis əmirliyinin IX-XI əsrdə mövcud olmuş Azərbaycanın feodal dövlətlərindən biri kimi öyrənilməsinə başlanılması Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Yaqub Mahmudovla bağlıdır. 1996-cı ildə Y.M.Mahmudov "Azərbaycan tarixi: Erkən intibah dövrü" əsərində ilk dəfə Şəki hakimliyi və Tiflis əmirliyi kimi dövlətləri Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Şirvanşahlar kimi dövlətlərlə bir sırada qeyd etmiş, bu dövlətlərin tarixinin Azərbaycan tarixinin ayrılmaz parçası olduğunu sübut etmişdir.[2] Y.M.Mahmudovun səyi nəticəsində orta məktəb Azərbaycan tarixi dərsliklərinə Tiflis şəhəri Azərbaycan şəhərlərindən biri kimi daxil edilmişdir. Yaqub Mahmudov Abxaz-iber çarı IV Davidlə Səlcuq imperiyası arasında olan mübarizəyə "Kitabi Dədə Qorqud"a əsaslanaraq daha doğru qiymət vermişdir: "Kitab-i Dədə Qorqud"da cərəyan edən tarixi hadisələr oğuz-qıpçaq toqquşmaları fonunda baş verir".[3] Bununla Yaqub Mahmudov IV Davidin məhz qıpçaq türklərinin sayəsində işğallarında uğur qazandığını göstərmişdir. Eyni zamanda o, ilk dəfə Azərbaycana qarşı çevrilən vahid xristian blokunun işğalda rolunu qeyd edib.[4]

2001-də t.ü.e.d. Nərgiz Əliyevanın "Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli mədəniyyətin rolu" mövzulu tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasında Tiflis və ətraf ərazilərin islam dinini qəbul etmə prosesi tədqiq edilmişdir, Həbib ibn Məsləmənin Tiflis əhalisi ilə yazışması təhlil edilmişdir.[5] 2007-ci ildə Şirinbəy Hacıəlinin "Şimal-Qərbi Azərbaycan: İngiloylar" mövzulu monoqrafiyasında Tiflis əmirliyi ilə Azərbaycanın şimal-qərbində yerləşən Şəki hakimliyi arasında olan münasibətlər öz əksini tapmışdır.[6]

---

[1] Azərbaycan tarixi: 7 cilddə. II cild (III-XIII əsrin I rübü). B.: Elm, 1998; Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1993 – kitabın üz qabığının içəri hissəsindəki xəritə; Велиханова Н.М. Изменение исторической географии Азербайджана в результата арабского завоевания // Историческая География Азербайджана. Б.: Элм, 1987, с. 74

[2] Mahmudov Y.M. Azərbaycan tarixi. Erkən intibah dövrü. B.: "Altay dünyası"nın nəşri, 1996, s.11

[3] Mahmudov Y.M. "Kitabi-Dədə Qorqud" tarixi mənbə kimi və ya türkün çağlayan tarix bulağı // "Altay dünyası" beynəlxalq jurnal, 1997. Sayı: 1-2, s. 51-68

[4] Mahmudov Y. M. Azərbaycan: Qısa dövlətçilik tarixi. B.: Təhsil, 2005, s.24-25

[5] Əliyeva N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli mədəniyyətin rolu. Tar.elm.dok. ... dissertasiyası. B.: 2001, s. 57

[6] Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan

2010-cu ildə Nərgiz Əliyevanın "Əs-Səmaninin "Kitab əl-ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi" monoqrafiyasında isə Azərbaycanın tarixi coğrafiyası araşdırılmış, Tiflis Arranın tərkibində verilmiş, tiflisli alimlərin adı azərbaycanlı alimlərin sırasında çəkilmişdir [1]. 2011-ci ildə Elnur Nəsirovun "Orta Əsrlərdə Yaşamış Azərbaycanlı Alimlər" monoqrafiyasında da Tiflis Azərbaycan şəhəri kimi göstərilib, ət-Tiflisi nisbəli alimlər azərbaycanlı alimlər kimi qeyd olunaraq onlar haqqında geniş məlumat verilib, alimlərin Tiflisin David tərəfindən işğal edildiyi XII əsrdən sonra Tiflisdən köçmələrinin real səbəbləri göstərilib.[2]

T.ü.f.d. Kərəm Məmmədov Tiflis əmirliyini Borçalı elinin bir hissəsi kimi vermiş, Azərbaycan ərazisində yaşayan ilk türklər – buntürklərlə bağlı məlumatların üzə çıxarılması və yayılmasında mühüm rol oynamış, türklərə aid olan qoç başlı heykəllərin yayılması ilə bağlı mühüm faktlar üzə çıxarmışdır. Onun Dumanis əmirliyi ilə bağlı araşdırmaları var.[3] O, Şenqavitdəki və Samtavrodakı paleoantropoloji materiallara əsaslanaraq Tiflis ətrafının, Borçalının qədimdən türklərin yaşadığı bölgə olduğunu göstərmişdir.[4]

Gürcü tarixşünaslığı tədqiqatçılarında Tiflis əmirliyi daha tez maraq doğurub. 1951-ci ildə akademik M.D.Lordkipanidze əmirliyin əmirlərini xronoloji çərçivəyə salmağa və sülalələrə bölməyə çalışmışdır. 1952-ci ildə S.Canaşia əmirliyi ərəblərlə əlaqələndirmişdir. Müsəlman əhalinin ərəblərlə əlaqələndirmə cəhdi S.Kaxianinin 1965-ci ildə çap etdirdiyi "Dmanisinin ərəb kitabələri" monoqrafiyasında da görülür. Ş.Mesxia isə 1974-cü ildə çap etdirdiyi monoqrafiyasında Tiflisi orta əsrlər Avropasındakı kommuna

---

XIII əsrin ortalarınadək). B.: Təhsil, 2007, s.143, 146, 152

[1] Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. B.: Şərq-Qərb, 2010, s.66-67, 70-71, 106-107

[2] Nəsirov E. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. B.: Nurlar, 2011, s.60, 322

3 Məmmmədov K. Qədim Azərbaycan tayfalarına xas olan siklopik tikililərə yalnız Borçalı ərazisində rast gəlinir http://www.borchali.net/index.php?cat=kerem_memmedov&s=2 (10.03.2015-11:33); Məmmədov K. Cənubi Qafqazda ilk müsəlman məbədini borçalılar VIII əsrdə Tiflisdə tikmişdi http://www.borchali.net/index.php?cat=kerem_memmedov&s=12 (10.03.2015-11:34); Məmmədov K. Dumanis Tarixi mənbələrdə http://qarapapaqlar.borchali.net/index.php?cat=oxu&id=61 (17.03.2015-11:35); Kərəm Məmmədovun təqdimatında tarix http://www.borchali.net/index.php?cat=kerem_memmedov (10.03.2015-11:36);

[4] Məmmədov K.H. Borçalı Qədim dövrdə / "Türk dünyası: dünəni və bu günü" mövzusunda beynəlxalq elmi konfransa təqdim olunmuş məruzə tezisləri. 23-24 may 2011. Azərbaycan Tarix Qurumu. BDU Tarix fakültəsi. B.: 2011, s. 61

– azad şəhər respublikalara bənzətməyə çalışmışdır.[1] 1979-cu ildə çap edilmiş İrina Calaqaniyanın "Gürcüstan pul dövriyyəsində yadelli sikkələr (V-XII əsrlər)" adlı monoqrafiyasında Tiflis əmirliyinə aid sikkələrə də rast gəlmək olur. M.D.Lordkipanidze Tiflis haqqında 1991-ci ildə "Tbilisi IV-XII əsrin əvvəllərində" adlı kitabı buraxaraq bu sahədə Gürcüstanda avtoritet olduğunu sübut etmişdir. Son dövr gürcü tədqiqatçılarından G.Alasanianın adını xüsusi qeyd etmək olar.

Türkiyəli tarixçilər arasında müasir Gürcüstan ərazisində yaşayan türk və müsəlmanlar haqqında Fahreddin Kırzıoğlu 50-ci illərdən etibarən "Kars Tarihi", "Kıpçaklar" monoqrafiyasında, "Artvin tarihi" məqaləsində, "Rize tarihi" çıxışlarında etnik məsələlərə aydınlıq gətirməyə çalışıb.

2000-ci ildə Yaşar Bedirhanın araşdırmalarında Böyük Səlcuq imperiyasının Cənubi Qafqaz siyasəti və Tiflis əmirliyi haqqında fraqmentar məlumatlar əldə etmək olur.[2] Eyni səpkili 2002-ci ildə N.Gümüşün "Büyük Selçuklu – gürcü ilişkileri" məqaləsi çap edilib. 2006-cı ildə N.Gümüşün "Celaleddin Harzimşahın Gürcistan seferleri" adlı məqaləsində Tiflisin işğaldan sonrakı vəziyyəti araşdırılıb.[3] N.Gümüşün 2007-ci ildəki "İlk dönem İslam – gürcü ilişkileri" monoqrafiyası Gürcüstanda və Tiflis bölgəsində İslamın yayılması ilə məlumatlar əldə etmək olur.[4] Monoqrafiyada hadisələr XI əsrə qədər gətirilir. Lakin, burada Tiflis əmirliyinin tarixi müstəqil olaraq araşdırılmayıb, gürcü – İslam əlaqələri tərkibində araşdırılmışdır.

Dünya tarixşünaslığında bu mövzunun ilk tədqiqatçılarından biri kimi ərəb əsilli Rusiya və sovet alimi Panteleymon Krestoviç Juzeni göstərə bilərik. Belə ki, onun "IX-X əsrlərdə Zaqafqaziyada mütəqəlliblər" adlı 1937-ci il tarixli məqaləsində Tiflis əmiri İshaq ibn İsmayıl haqqında məlumat, Tiflis əmirliyi haqqında xırda arayış verilmişdir.[5]

1949-cu ildə V.F.Minorskinin ən əhəmiyyətli tədqiqatlarından biri nəşr

---

[1] Mesxia Ş. A. Saqartvelşi qalaqebis sotsialuri urtiertobis istoriidan (Qalaqi da feodaluri aristokratia XI-XIII s. s.) // Mimomxilveli. Sakartvelos metsnierebata akademiis istoriis instituti. 1951, II t., s.106

[2] Bedirhan Y. Kafkasya ve Büyük Selçuklu Devletinin Kafkasya Politikası. Doktora tezi, Konya, 1999, s.106; Bedirhan Y. Ortaçağda Kafkasyada Selçuklularla Gürcüler Arasında Siyasi Hakimiyet Mücadelesi // Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü dergisi, 2000, Sayı: 6, s. 174

[3] Gümüş N. Celaleddin Harzimşahın Gürcistan seferleri // EKEV Akademi dergisi, Güz 2006, Yıl: 10, sayı: 29, s.156

[4] Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri. Rize: Karadeniz B. Y., 2007, s.91

[5] Жузе П.К. Мутагаллибы в Закавказье в IX-X вв. (К истории феодализма в Закавказье) / Материалы по истории Грузии и Кавказа. III выпуск. Ин-т языка истории и матер. культуры им акад. Н.Я.Марра. Тбилиси, 1937, с.179

edildi ki, İbn əl-Azraq əl-Fariqinin "Tarixi Məyyafariqin" əsərini işləməsidir ki, bu əsərdə Tiflis əmirliyinin son dönəmlərinə aid bir sıra məlumatlar tapmaq olur.[1] 1963-cü ildə V.F.Minorski "Şirvan və Dərbənd tarixi" kitabında Əhməd ibn Lütfullah Münəccimbaşının müəllifi olduğu mənbəyə bir sıra şərhlər vermişdir ki, burada Tiflis əmirliyi və Tiflis şəhəri ilə bağlı məlumatlara rast gəlmək olur. İslam Ensiklopediyasında V.F.Minorski Tiflis əmirliyi ilə bağlı məlumatlar verməyə çalışmışdır.[2]

1970-ci ildə Y.A.Paxomov "Gürcüstan sikkələri" adlı monoqrafiyasında təqdim etdiyi sikkələr sayəsində Cəfəri əmirlərinin hakimiyyət dövrü haqqında dəqiqləşdirmələr aparmaq mümkün olur.[3]

**Mövzunun mənbə bazası.** Tədqiqatın mənbə bazasının əsasını IX-XIII əsrlər ərəb mənbələri, "Kartlis Sxovreba" adlanan gürcü tarixinə aid salnamələr külliyyatı təşkil edir. Tədqiqat işində yerli mənbələrdən, erməni mənbələrindən və antik mənbələrdən də istifadə edilmişdir.

İstifadə edilən ərəb mənbələri əsasən iki yerə bölünmüşdür: 1) Coğrafi ədəbiyyat; 2) tarixi ədəbiyyat. Birincilər əsasən tədqiq edilən ərazinin coğrafi, dini və siyasi ərazi mənsubiyyəti ilə bağlı məlumatlar verir. İkincilər isə tarixi hadisələr, siyasi vəziyyət barədə məlumat xarakteri daşıyır.

<u>Coğrafi mənbələr.</u> IX əsrdən etibarən İslam dünyasında coğrafi əsərlər geniş yazılmağa başladı. Bu əsərlərdə Azərbaycan və onun şəhərləri haqqında da geniş məlumatlara rast gəlmək olur. Tiflis şəhəri məhz bu coğrafi mənbələrdə Azərbaycanın, daha dəqiq desək Arranın şəhəri kimi qeyd edilmişdir.

Əbul-Qasim Ubeydullah ibn Abdullah ibn Xordadbeh Xəlifə Mutəsimin dövründə "Kitab əl-məsalik və-l məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsərini yazmışdır. O, Cənubi Qafqazın inzibati bölgüsünü dəqiq göstərmiş, Tiflisi Azərbaycan şəhərləri ilə bir sırada çəkmişdir.[4]

Əbül-Həsən Əli ibn Hüseyn ibn Əli əl-Məsudi "Müruc əz-zəhəb və məadin əl-cəvahir" ("Qızıl təmizləmə yerləri və əlvan daş – cəvahirat mədənləri") əsərində Tiflis şəhərini sərhəd rayonu adlandırır. Eyni zamanda curzanların Tiflis ətrafını işğal etdiyini və İslam ölkələrindən Tiflisə gediş-gəlişin kəsildiyini qeyd edir. Bundan əlavə o, Qardabanda yaşayan Siyavur-

---

[1] Minorsky V. Caucasica in the History of Mayyafariqin // Bulletin of the School of Oriental and African Studies, 1949, Vol. 13, no. 1, p.33
[2] Minorski V. Tiflis /İslam Ansiklopedisi. 12/1.Cilt. İst: M.E. Basımevi, 1979, s. 266-268
[3] Пахомов Е. А. Монеты Грузии. Тбилиси: Мецниереба. 1970, с.46-51
[4] Vəlixanlı N.M. IX-XII əsr ..., s. 18; İbn Xordadbeh. Kitab əl-Məsalik əl-Məmalik. Leyden: E.J.Brill. 1967, s.122

diyyə və Şəki ərazisinə tabe Sənariyə haqqında məlumatlar verib.[1]

"Kitab məsalik əl-məmalik" ("Məmləkətlərin yolları haqqında kitab") seriyasına daxil olan kitablardan birinin müəllifi X əsrdə yaşamış Əbu İshaq ibn Muhamməd əl-Farisi əl-İstəxridir. Məhz onun əsərində Arranda Tiflisdən, Bərdədən və əl-Babdan böyük şəhərin olmadığı qeyd edilir.[2] O, Məsudi kimi Tiflisin sərhəd şəhəri olduğunu qeyd edir. O Arranın sərhədlərinin Bab əl-Əbvabdan Tiflisədək uzandığını bildirir.

Əbul-Qasım Muhamməd İbn Havqəl ən-Nasibi "Kitab məsalik əl-məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsərində yuxarıdakı fikirlərdən əlavə olaraq Tiflis əhalisinin sünni məzhəbinə mənsub olduğunu da yazmışdır.[3]

X əsrin ikinci yarısında yaşamış Muhamməd ibn Əhməd Şəmsəddin əl-Müqəddəsi və ya Məqdisi "Əhsən ət-təqasim fi mərifətil əqalim" (İqlimləri öyrənmək üçün bölgülərin ən yaxşısı) əsərində Azərbaycan və Arranı bir birləşdirərək Rihab adı altında vermişdir. Onun qeydlərində də Tiflis Arran şəhəri kimi qeyd edilmişdir.[4]

Tarixi mənbələr. Bu mənbələrin arasında Əbu Məhəmməd Əhməd ibn Əsəm əl-Kufinin müəllif olduğu "Kitab əl-fütuh" (fəthlər kitabı) mühüm yer tutur. Əsər Əsərdə ilk ərəb yürüşləri və Xəzər-ərəb müharibələri, Əməvilərin son dövrü və Qafqaz siyasəti geniş işıqlandırılıb. Fraqmentar olaraq Tiflisə aid məsələlərə də rast gəlmək olur.[5]

Tədqiqat işində istifadə edilən mənbələrdən biri də Əbu Cəfər Muhamməd ibn Cərir ət-Təbərinin "Tarix ər-rusul vəl muluk" (Peyğəmbərlər və hökmdarların tarixi) əsəridir. İlk ərəb yürüşləri haqqında bölümdə Tiflisin fəthinə dair məlumatlara rast gəlmək olur. Əsərdə Tiflisə sərkərdə Həbib ibn Məsləmənin verdiyi amannamənin mətni vardır.[6]

Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazuri IX əsr ərəbdilli tarixçilərdəndir. "Kitəb Futuh əl-Buldan" (Ölkələrin fəthi kitabı) əsəri olduqca qiymətli

---

[1] Vəlixanlı N.M. IX-XII əsr .., s. 61
[2] Vəlixanlı N.M. IX-XII əsr .., s. 89; Əl-İstəxri, Əbu İshaq əl-Farisi. Kitab əl-Məsalik əl-Məmalik. Leyden: E.J.Brill. 1967, s.187
[3] Vəlixanlı N.M. IX-XII əsr .., s. 110
[4] Yenə orada, s. 131; Əl-Müqəddəsi, Şəmsəddin Əbi Abdullah Muhamməd bin Ahməd bin Əbi Bəkr. Əhsən ət-təqasim fi mə'rifəti-l əqalim. Leyden: BGA, E.J.Brill. 1967, s. 375-376
[5] Əhməd ibn Ə'səm əl-Kufi. Kitab əl-Fütuh (Fəthlər kitabı). B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1995, s.9, 11, 46
[6] Əliyeva N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli mədəniyyətin rolu. B.: 2001, s.121-122; Təbəri. Tarix ər-Rusul və-l Muluk. 9 cilddə. IV c. Qahirə: Daru-l Mə'arifi bi Mısr. 1963, s.162-163

məlumatları ehtiva etməkdədir. O, "Ərminiyyənin fəthi" bölməsində əvvəlcə Ərminiyyə inzibati bölgüsü haqqında məlumat vermiş, Curzanı II Ərminiyyənin tərkibində göstərmiş, Tiflis bölgəsini isə Arranla birlikdə I Ərminiyyənin tərkibində göstərmişdir.[1] O, Curzan və Arranın xəzərlərə aid olduğunu söyləyərək Qəbələni Xəzər şəhəri kimi göstərib.[2] Bəlazuri həm Həbib ibni Məsləmə, həm də Cərrah ibn Abdullahın Tiflisə verdiyi amannamələrin mətnini öz əsərində qeyd edib.[3]

Tarixi mənbələr arasında öz orijinallığı ilə seçilənlərdən biri də Əhməd ibn Əbu Yaqub əl-Yaqubinin "Tarix" əsəridir. Bölgəyə ilk ərəb yürüşlərindən əlavə onun Tiflisin yaxınlığında yaşayan sanarlar haqqında qiymətli məlumatları vardır.[4]Əhməd ibn Əbu Yaqub əl-Yaqubinin ən qiymətli məlumatları isə Tiflis əmiri İshaq ibn İsmayılın fəaliyyətini əks etdirən məlumatlardır.[5]

İbn əl-Əsir adı ilə tanınan İzzəddin Əbul-Həsən Əli ibn Muhamməd ibn Əbdul Kərim əl-Cəzirinin "Əl-Kamil Fit Tarix" ("Tarixlərin ən yaxşısı") əsərində Tiflisin ərəblər tərəfindən fəth edilməsi, Buğa Türkün Tiflisə yürüşü, X əsrin sonundan etibarən əmirliyə edilən abxaz-iberlərin qarətçi yürüşləri, səlcuqluların Tiflis və ətrafı idarə etməsi, XII əsrdə Tiflisin şəhərinin Abxaz – Kartli çarı IV David tərəfindən işğalı və s. haqqında məlumatlar verilmişdir.[6]

Səlcuqluların Qafqaz yürüşləri və buradakı fəaliyyətləri ilə bağlı ən mühüm mənbə Sədrəddin Əli əl-Huseyninin "Əxbar əd-Daulət əs-Səlcuqiyyə"sidir ("Səlcuqlu dövlətinin xəbərləri"). Burada Alp Arslanın Qafqaz siyasəti haqqında geniş məlumatlar verilmişdir.[7]

Ensiklopediya janrında yazılmış əhəmiyyətli əsərlərdən biri XIII əsr tarixçisi Şihabəddin Əbul-Abbas Əhməd ibn Əli ibn Əhməd əl-Qəlqəşəndi-

---

[1] Из соч. Баладзори. Книга завоевания стран. Б.: Издание О-ва, 1927, с. 5; Əl-Bəlazuri. Kitab Futuh əl-Buldan. (3 cild 1 yerdə). I cild 1-290. II cild 295-498. III cild 498-793. Qahirə: Ləcnətu-l Bəyanu-l Arabi. 1957, s. 231

[2] Əl-Bəlazuri, Əhməd bin Yəhya bin Cabir. Kitab Futuh əl-Buldan.., s. 231

[3] Из соч. Баладзори.., с. 12-13; Əl-Bəlazuri .., s. 238-239

[4] Əl-Yaqubi. Tarix. Azərbaycanın VII-IX əsrlər tarixinə aid çıxarışlar / AMEA akad. Z.M.Bünyadov ad. Şərqşünaslıq İn., B.: Nurlan, 2005, s.212; Əl-Ya'qubi, Əhməd ibn Əbi Ya'qub ibn Cə'fər ibn Vadih əl-Kətib. Tarix. II cild. Beyrut: Dar Sader Dar Beyrut. 1960, s. 372

[5] Əl-Yaqubi. Tarix..,s.219, 222, 223, 224-225

[6] İbn əl-Əsir. Əl-Kamil Fi-t-Tarix. B.: 1959, s.22, 84, 139, 145-146, 149

[7] Садраддин Али ал-Хусайни. Ахбар ад-Даулат ас-Селджукиййа. Издание текста, перевод, введение, примечания и приложения З.М.Буниятова. Москва: Наука, 1980, с.51-54

nin müəllifi olduğu "Sübh əl-Əşa fi Sinaat əl-İnşa" ("İşgörmə, idarə etmə sənətində bilməyənlər (korlar) üçün başlanğıc, sübh") əsəridir. Onun əsəri özündən əvvəlkilərin əsərlərinin icmalı xüsusiyyətini daşıyır. Tiflis şəhəri haqqında məlumatlarda o, buranın işğaldan əvvəl Arranın olduğu, işğaldan sonra isə gürcülərin əlinə keçən bir şəhər olduğunu yazır. Qəlqəşəndi Tiflisi Bərdədən sonra Arran iqliminin ikinci paytaxtı kimi qeyd etmişdir. Qəlqəşəndinin əsərində tiflisli alimlərdən Əbu Əhməd Hamid ibn Yusuf ibn əl-Huseyn ət-Tiflisi haqqında məlumat da var.[1]

Ahməd ibn Lütfullah Münəccimbaşının "Şirvan və əl-Bab tarixi" tarixi əsərində bir zamanlar Tiflis daxil olmaqla Arranı idarə etmiş Məzyədi Şeybanilər haqqında məlumatlar var.[2] Bundan əlavə müsəlman tarixçiləri arasında Tiflisin işğalından sonrakı vəziyyətlə bağlı Əhməd ibn Yusif ibn Əli ibn əl-Azraq əl-Fariqinin və Cəlaləddin Xarəzmşahın tarixçisi Şihabəddin Muhamməd ən-Nəsəvinin qeydləri çox əhəmiyyətlidir. Məhz əl-Fariqinin qeydlərində biz Tiflisin IV David tərəfindən işğal edilməsi ilə bağlı, işğaldan sonra Tiflisdə müsəlmanların vergi vəziyyəti ilə bağlı, dini azadlıqları ilə bağlı, alimləri və elmi mühitlə bağlı, IV David və Demetrenin müsəlman əhaliyə münasibətləri ilə və müsəlmanların Tiflisi tərk etmə səbəbləri ilə bağlı ilkin məlumatlara rast gəlirik.[3]

Tiflis əmirliyinin tarixini araşdırarkən müraciət edilən mühüm mənbələr gürcü mənbələridir. Gürcü mənbələri əsasən tərtib edilməsinə XII əsrdə başlanmış "Kartlis Sxovreba" salnamələr külliyyatında toplanmışdır. M.Brossenin "Gürcüstan tarixi" əsərində qeyd olunan tarixi hadisələrdə külli miqdarda anaxronizm olduğu göstərilir. Məhz buna görə V.F.Minorski gürcü mənbələrinin ərəb və erməni mənbələri ilə bir yerdə dəyərləndirilməsinin vacibliyini vurğulayır.[4] Eyni zamanda ərəb mənbələrindən fərqli olaraq gürcü mənbələrinin bir çoxu hadisələrin müasirləri tərəfindən deyil, ən yaxşı halda XI əsr tarixçiləri tərəfindən yazılmışdır. Ərəb mənbələri isə IX əsrdən yazıldığı üçün daha dəqiq məlumatlı sayılırlar. Bütün bu çatışmazlıqlar gürcü mənbələrinin əhəmiyyətini azaltmır.

Zaman ardıcıllığına uyğun olaraq izləsək gürcü salnamələri arasında ilk olaraq "Kartli çarlarının həyatı" salnaməsi gəlir. Bu əsərin yazıçısı XI əsrdə

---

[1] Əl-Qəlqəşəndi. Sübh əl-Ə'şa fi Sinaat əl-İnşa / Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. B.: Nurlan, 2005, s. 266-267

[2] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва: 1963, с.46-47

[3] Minorsky V. Caucasica in the History of Mayyafariqin // Bulletin of the School of Oriental and African Studies, 1949, Vol. 13, no. 1, p.33-35

[4] Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri. Rize: Karadeniz B.Y., 2007, s.21

yaşadığı güman edilən Leonti Mrovelidir. Əsərdə V əsrə qədər olan hadisələr işıqlandırılıb. Əsərin tədqiqat işi üçün əhəmiyyətli cəhəti burada Kaspi şəhəri haqqında qeydlər, buntürklər və Xəzər türkləri haqqında qiymətli məlumatlardır.[1]

V–VIII əsrlər tarixini əhatə edən "Vaxtanq Qorqasalın həyatı" salnaməsini isə XI əsrdə yaşayan Cuanşer Cuanşeriani yazmışdır. Bu əsərdə gürcülərin Tiflislə bağlı ilk məlumatları, Vaxtanqın Şərqdə və cənubda işğalçılıq hərəkətləri və s. öz əksini tapmışdır.[2]

"Vaxtanq Qorqasalın həyatı" əsərinin davamı, "Kartli Salnaməsi" əsərinin proloqu olan "Arçilin iztirabları"nın da Leonti Mroveli tərəfindən yazıldığı güman edilir. Əsər ilk ərəb yürüşləri, xüsusilə Əməvilərin son dövrünün Qafqaz siyasəti haqqında qiymətli məlumatlar verir.[3]

"Kartli salnaməsi" əsərinin anonim tarixçi tərəfindən yazıldığı iddia edilir. Əsərdə Baqrationi ailəsinə xüsusi dəyər verilməsi onun da ən yaxşı halda XI əsrdə yazıldığını iddia etməyə imkan verir. Əsər VIII-XI əsrlər hadisələrini işıqlandırır. Əsərdə Məzyədi-Şeybanilərin Tiflis şəhəri üzərinə yürüşləri haqqında, İshaq ibn İsmayılın hakimiyyəti haqqında, Cəfərilərin hakimiyyətinə qədər əmir olan Qabulos – Qabil haqqında, Cəfərilərin ilk dövrü, ilk Səlcuqlu yürüşləri haqqında qiymətli məlumatlar var.[4]

Anonim müəllif tərəfindən yazılan digər əsər "Çarlar çarı Davidin tarixi" salnaməsidir. Əsərdə səlcuqlu-abxaz-iber mübarizəsi, Tiflis əmirliyinin son dövrləri, qıpçaqların köçürülməsi haqqında məlumatlar var.[5]

XI əsr tarixçisi Sumbat Davitisdzenin "Baqrationilərin tarixi və təhkiyəsi" əsəri də ən qədim dövrlərdən XI əsrə qədər olan hadisələri əhatə edir. Məhz bu əsərdə Tiflisə ilk dəfə iberlər tərəfindən "Qala" deyildiyinin şahidi oluruq.[6]

"Kartlis Sxovreba" külliyatına daxil olmayan, amma əhəmiyyəti böyük olan əsərlərdən "Gürcüstanın dönüşü" əsərini xüsusi qeyd etmək olar. Bu əsərdə "Kartli çarlarının həyatı" salnaməsində olduğu kimi buntürklər və

---

[1] Мровели Леонти. Жизн Картлийских царей. Москва: 1979, с.24-25, 28, 50-51, 59-60

[2] Джуаншер Джуаншериани. Жизнь Вахтанга Горгасала. Тбилиси: Изд. «Мецниереба», 1986, с.186, 200

[3] Летопись Картли. Тбилиси: Изд. «Мецниереба», 1982, с. 42

[4] Yenə orada, s. 50, 73

[5] Житие царя царей Давида. // Символ, 1998, № 40, с.289

[6] Baqrationilərin tarixi və təhkiyəsi, pdf variant http://www.science.org.ge/books/Kartlis%20cxovreba/Kartlis%20Cxovreba%202012%20Rus.pdf, s. 222, 233 (10.03.2015-11:41)

hunlar haqqında məlumat verilib.[1]

Bundan əlavə Vaxuşti Baqrationi “Gürcü çarlığının tarixi”, David Baqrationinin “Gürcüstan tarixi”, “Tacidarların tarixi və mədhiyyəsi”, Platon İosselianinin “Gürcü kilsəsinin qısa tarixi”, Basili Ezosmodzqvarinin “Çariça Tamarın tarixi” əsərlərində də Tiflis şəhəri haqqında fraqmentar məlumatlara rast gəlmək olur.

Tədqiqat işində ikinci dərəcəli olaraq antik və ermənidilli mənbələrdən də yararlanıb. Favstos Buzand, Ğazar Parpetsi, Vardan Araveltsi, Sebeos, Gevond, İohan Drasxanakertsi, İohan Mamikonyan, Kirakos Gəncəlinin əsərləri bu mənada əhəmiyyətə malikdir. Antik mənbələrdə isə bəhs edilən dövrdən əvvəlki İberiya-Albaniya sərhədlərini dəqiqləşdirməkdən ötrü, Tiflis şəhərinin mənsubiyyəti ilə bağlı qiymətli məlumatlar olduğu üçün dissertasiya işinə daxil edilmişdir. Onların içində Strabon, Plini, Ptolemeyin məlumatları bu barədə tədqiqatın işinə çox yararlı olmuşdur.

Bütün yuxarıda sadalanan ədəbiyyatlarla və mənbələrlə yanaşı yerli Albaniya mənbələrindən Musa Kalankatuklunun “Albaniya tarixi” əsərində Albaniya tarixi ilə bağlı bir sıra əhəmiyyətli məlumatlara rast gəlmək olur.

Yerli mənbələr arasında Kitab-i Dədə Qorqudun adı xüsusi qeyd edilməlidir. Belə ki, bu abidədə oğuzların qıpçaqlarla mübarizəsi, Salur Qazanın Gürcüstan yürüşü, Bəkil oğlu Əmranın Gürcüstan sərhədində mübarizəsi, oğuzların gürcülərlə Başı Açıq (Kutaisi – İmeretiya) ətrafında mübarizə aparmaları, Oğuz eli və abxazlar arasındakı sərhədin bura yaxın olması, buralarda Aqsəqa-Axıska qalası, Tatyan-Dadiani qalası olması və s. məqamlara rast gəlmək olur ki, bu da tədqiqat işində Tiflis əmirliyi və iberlərin – gürcülərin sərhədlərinə işıq salmağa eyni zamanda yerli türklərin tarixini öyrənməyə yaxından kömək edir.[2]

**Tədqiqatın məqsədi və vəzifələri.** Azərbaycan tarixində Tiflis bölgəsinin tarixi ilə bağlı boşluğu doldurmaq, eyni zamanda başqaları tərəfindən edilən əsassız ərazi iddialarına cavab vermək və Tiflis əmirliyinin tarixinin saxtalaşdırılmasının qarşısını almaq tədqiqatın əsas məqsədlərindən sayılır.

Əsasən hər fəsildəki bölmələr vəzifələrə əsasən qruplaşdırılmışdır. Konkret olaraq tədqiqatda vəzifə olaraq müəyyənləşdirilib:

---

[1] Kartli çarlarının həyatı, pdf variant- http://www.science.org.ge/books/Kartlis%20cxovreba/Kartlis%20Cxovreba%202012%20Rus.pdf, s.17-20 (10.03.2015-11:35); Gürcüstanın dönüşü, pdf variant http://dspace.nplg.gov.ge/bitstream/1234/3164/1/Obrashenie_Gruzii.pdf –s. 9 (10.03.2015-12:33)

[2] Kitabi-Dədə Qorqud. B.: Yazıçı, 1988, s.42, 74, 104-105, 260

- Xilafət işğallarına qədər Tiflis bölgəsinin etnik və siyasi mənsubiyyət məsələsini araşdırmaq, sərhədlər məsələsini işıqlandırmaq;
- Ərəb yürüşlərindən sonra, Əməvilər və Abbasilər sülaləsinin hakimiyyəti dövründə bölgədəki siyasi, ictimai vəziyyəti tədqiq etmək. Ərəb nüfuzunu və bölgədə İslam dininin yayılmasını tədqiq etmək. Ərəblərin bölgədəki fəaliyyətləri və yerli canişinləri araşdırmaq;
- Xilafətin zəifləməsi nəticəsində Tiflis əmirliyinin qurulduğu vaxtı dəqiq ortaya qoymaq, ilkin sülaləni dəqiqləşdirmək. Əmirliyin ətraf dövlətlərlə münasibətini, xarici müdaxilələri araşdırmaq;
- Əmirliyin sərhəd, ərazi, əhali, daxili idarəetmə problemlərinə aydınlıq gətirmək;
- Əmirliyin zəifləmə səbəblərini araşdırmaq. Daxili mübarizə və xarici müdaxilələrə yenidən baxış: 1) İndiyə kimi zəifləmə səbəbi kimi verilməyən III Cəfərin oğulları Mənsur və Əbulhicanın oğullarının ikihakimiyyətliliyinə daxili mübarizə kimi baxmaq (1046-1068). 2) Abxaz-Kartli çarlarının şərqə doğru hücumlarına III Baqratdan (1008-1014) etibarən xristian koalisiyasının hücumları kimi baxmaq;
- Səlcuqluların Qafqazdakı yerli siyasətini tədqiq etmək. Yerli müstəqil əmirləri zəiflətmələri ilə gələcəkdə bölgədə xristian ittifaqına qarşı yerli müqavimətin zəif olması arasında əlaqəni araşdırmaq;
- IV Davidin güclənmə səbəblərini araşdırmaq. Onun qıpçaqlarla və xaçlı (səlib) qüvvələri ilə münasibətini araşdırmaq. Səlib yürüşlərinin o dövrdəki qüvvələr tarazlığındakı meydana gətirdiyi dəyişikliklərin bölgədə səlcuqlu-xristian koalisiyası münaqişəsinə, həmçinin Tiflis bölgəsinə təsirini araşdırmaq;
- Tiflis müsəlmanlarının assimilyasiya edilməsi və Tiflisin müsəlmanlardan təmizlənməsinin səbəblərini aydınlaşdırmaq;
- Tiflis İslam mədəniyyətini araşdırmaq.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat işində əsasən müqayisəli, müqayisəli-tarixi metoddan istifadə edilib. Ərəbdilli, gürcüdilli, qismən yerli, antik və erməni dilli yazılı mənbələrin, eyni zamanda əmirliyə aid numizmatik materialların analizi, müqayisəli təhlili, həmçinin, arxeoloji, numizmatik, antropoloji və etnoqrafik dəlillərə əsaslanmaqla məsələyə tarixə köməkçi elmləri də daxil etmək tədqiqatın metodoloji əsaslarını təşkil edir. Arxeologiyaya, xüsusilə, numizmatikaya da müraciət olunur. Tədqiqat işində əldə olunmuş bir sıra nəticələr, o cümlədən hadisələrin areal xüsusiyyətlərinin öyrənilməsi məsələsinə yeni aspektdən baxılmışdır. Hadisələrin areal olmasının, bir sıra hallarda bütün Azərbaycandan qismən ayrı olması-

nın, Gürcüstana isə ümumiyyətlə aidiyyatının olmamasının səbəbləri tarixi – coğrafi, milli-etnik, dini aspektdən qiymətləndirilmişdir. Qədim türk yurdu olan Tiflis və ətraf ərazilərdə türklərin hələ çox–çox qədimdən məskunlaşmalarını, buranın Arrana məxsus olmalarını sübut edən faktlar üzə çıxarılmışdır. Mənbələr araşdırılarkən əsasən analiz və müqayisə metodlarından istifadə edilmişdir. Mənbənin daxili və xarici tənqidi bir tərəfdən mənbənin yazılma üsulunu və ənənəsini, digər tərəfdən onun məzmununun analizini nəzərdə tutur. Məhz buna görə tədqiqat işində müxtəlif mənbələrin bir-birini tamamlanması və ya məlumatların təshihi nəzərdə tutulub və buna nail olmağa çalışılıb.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyanın elmi yeniliyi ibarətdir:

- Tiflis əmirliyi Azərbaycanda ilk dəfədir, birbaşa tədqiqat obyekti olur;
- Tiflis əmirliyinin Azərbaycanın IX–XI əsrlərdə mövcud olmuş feodal dövlətlərindən biri kimi öyrənməyin vacibliyi qeyd edilir;
- yalnız ərəb mənbələrindəki deyil, antik müəlliflərin və digər müəlliflərin əsərlərində də Tiflisin Albaniya – Arrana aid olması haqqında məlumatlar təqdim edilir;
- Tiflis əmirliyində M.D.Lordkipanidzenin Şuaybilər və Şeybanilər sülalələrinin hakimiyyətini irsi sülalə kimi verilməsi şübhə altına alınır;
- ilk dəfə daha əsaslı olaraq XI və XII əsrdə Tiflis əmirliyinin xarici müdaxiləyə qarşı zəif mübarizəsinə səbəb kimi Tiflis əmiri III Cəfərin oğulları Mənsur və Əbulhicanın taxt uğrunda mübarizəsi səbəb göstərilir;
- Didqori döyüşü və Tiflis əmirliyinin işğalı ərəfəsində IV Davidin xaçlı dövlətləri ilə mümkün əlaqəsi araşdırılır. "Kartveloba" (gürcüləşmə və ya gürcü torpaqlarının birləşdirilməsi) nəzəriyyəsi gürcü milliyyətçiliyi nöqteyi-nəzəri ilə yanaşı, əsasən xristian birliyi, vahid xristian bloku nöqteyi-nəzərindən işlənməyə çalışılır.

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işi Azərbaycan tarixində feodal dövlətlərin, xüsusilə qərb və şimal-qərb bölgəsindəki dövlətlərin etnik və milli mənşəyi ilə bağlı olan boşluğu doldura biləcək, bir sıra gürcü tədqiqatçıların "kartveloba" iddialarına, eyni zamanda Tiflis əmirliyi işğalına gürcü torpaqlarının birləşməsi iddiaları ilə bağlı olan yanlış nəzəriyyələrə cavab ola biləcək özəlliklərə malikdir. Tədqiqat işindən Şimali Azərbaycan – Arranın qərb və şimal–qərb ərazilərinə edilən ilk ərəb yürüşləri, IX-XII əsrlərdə mövcud olmuş Azərbaycan feodal dövlətlərinin və onların aralarındakı münasibətlərin öyrənilməsində, səlcuqlular və şimali Azərbaycan–Arran dövlətlərinin əlaqələrinin öyrənilməsində, Gürcüstan dövlətinin Azərbaycanla erkən orta əsrlər və intibah dövründəki müna-

sibətlərin öyrənilməsində, Azərbaycan orta əsrlər tarixinə dair dərsliklərin və dərs vəsaitlərinin yazılmasında, ixtisas kurs və seminarlarının aparılmasında köməkçi əyani vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qafqaz tarixi" şöbəsində yerinə yetirilmiş, şöbə əməkdaşlarının, habelə digər əlaqəli elmi müəssisələrdən dəvət edilən mütəxəssislərin birgə iştirakı ilə müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin mövzu ilə bağlı əsərlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, mənbələrdən çıxarış və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiq olunan problemin aktuallığı, xronoloji çərçivəsi, mövzunun öyrənilmə səviyyəsi, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti haqqında məlumat verilir.

I fəsil **"Tiflis bölgəsi Ərəb xilafətinin tərkibində"** adlanır. I fəslin ilk bölməsində Tiflis bölgəsinin Xilafət işğallarına qədər olan qısa tarixinə nəzər yetirilir. Numizmatik və arxeoloji materiallara əsasən Tiflis bölgəsinin ən az e.ə. IV-III əsrlərdən beynəlxalq ticarətdə fəal yer aldığı müşahidə edilir[1]. Bu isə gürcü mənbələrinin Tiflis şəhərinin əsasının gürcü hökmdarı Vaxtanq Qorqasal (447-502) tərəfindən qoyulması iddiası ilə üst-üstə düşmür[2]. "Gürcüstanın dönüşü" əsərində Kaspi şəhərinin gürcü-iberlərə mənsub olmadığı, II Arsuk (Arşak) (e.ə.20-e.ə.2) tərəfindən tutulduğu yazılır. Tiflisdən qərbdə yerləşən İber paytaxtı Msxetanın salınması da e.ə. I əsrdə baş vermişdir.[3] Kaspi adında Albaniyada tayfalar yaşamış, öz adlarını Kaspiana vilayətinə və Xəzər dənizinə vermişlər. Daha dəqiq məlumat isə Strabondadır (e.ə.I əsr-b.e.I əsr). "İberiyanın mərkəzindəki düzənlikdən çaylar axıb keçir. Onlardan ən böyüyü Kürdür. O ... Qafqazdan axıb gələn Araq (Araqvi) çayını və başqa qolları qəbul edir, sonra isə dar vadidən keçərək Albaniyaya axır" .[4] Kür çayı məhz Araqvi ilə birləşdikdən sonra ən dar vadi

---

[1] Лордкипанидзе М.Д. Тбилиси (IV- начало XII в.). Тбилиси: 1991, с. 3
[2] Джуаншер Джуаншериани. Жизнь Вахтанга Горгасала, с.200
[3] Gürcüstanın dönüşü, pdf variant http://dspace.nplg.gov.ge/bitstream/1234/3164/1/Obrashenie_Gruzii.pdf –s.10 (10.03.2015-12:33)
[4] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989, s.15; Страбон. География.

ilə axmağa başlayır və Kürün Araqvi ilə birləşməsi də Tiflisdən şimalda baş verir. Strabonun iberləri albanların şimalında deyil, qərb sərhədində yerləşdirməsi[1], eyni iddianı VII əsr müəllifi Moisey Xorenlinin təkrarlaması, buna Albaniyanın Sarmatiya ilə bitişik olması iddiasını əlavə etməsi[2] Albaniyanın şimal-qərb sərhədlərinin Tiflis və Telavi daxil olmaqla Dəryal keçidinə qədər uzandığını göstərir.

Eyni fikri Ptolomey də təsdiqləyir: Albaniyanın şimaldan Sarmatiya, qərbdən İberiya ilə sərhəd olduğunu dedikdən sonra, hal-hazırda Azərbaycan Respublikasının ərazisinə daxil olmayan Tiflis (Tilbis), Telavi (Telayba), Tianeti (Tiavna), Bakursixe (Bakxiya), Anaqa (Niqa), Cuqaani (Deqlane), Tsnori (Sanua) kimi məntəqələrin adını çəkir[3].

I fəslin II bölməsi Tiflis bölgəsinə ilk ərəb yürüşləri haqqındadır. Bəzi mülahizələrə görə hələ Xəlifə Ömərin (634-644) dövründə İyad ibn Ğanm Tiflisi ilk dəfə fəth etmişdir.[4] 646-cı ildə isə Həbib ibn Məsləmə Tiflis əhalisi ilə amannamə imzalayır. Bu müqavilədən sonra Həbib Havarehə, Kisala (Qazax), Hunana, Səmsəxiyə (Samsxe), Cərdmana (Girdiman), Kustasciyə, Şavşitə, Bazalitə sahib olur.[5] Bu yerlər Kustasci-Quştəsfi istisna edilməklə ümumilikdə götürəndə Qərbi Albaniya torpaqlarına ya da Albaniyanın nüfuz dairəsinə daxil olan ərazilər olduğu müşahidə edilir. Həbib Əməvilər dövründə Tiflisi ikinci dəfə ələ keçirərkən Abdurrahman ibn Caz əs-Suleymini burda İslamı təbliğ etmək üçün saxlayır. Əhalinin böyük bir hissəsi müsəlman olur.[6] Abdurrahmanın təbliğ fəaliyyəti ilə yanaşı Yaqutun verdiyi məlumata görə Həbibə gətirilən hədiyyələrin dəyərinin təsbit edilib cizyə vergisinin bir qisminin buradan qarşılanmasının da əhalinin kütləvi şəkildə

---

Москва: Наука, 1964, с. 474

[1] Алиев К.Г. Античные источники по истории Азербайджана. Баку: Элм, 1986, с.19; Страбон. География, с.475

[2] Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar, s.31; Moisey Xorenliyə aid olması ehtimal edilən VII əsr erməni coğrafiyası. Asiya bölməsi. http://vehi.net/istoriya/armenia/geographiya/index.html (10.03.2015- 11:00)

[3] Ган К.Ф. Известия древних греческих и римских писателей о Кавказе // СМОМПК. Тифлис. 1884. №4. с.169-171; Муравьев С.Н. Птолемеева карта Кавказской Албании и уровень Каспия // ВДИ, 1983, №1, с.132; Claudii Ptolemaei. Geographia. Edit C.F.A.Nobbe. V. II. Lipsiae: Sumptibus et typis Caroli Tauchnitii. 1845, p.46-48

[4] Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri. Rize: Karadeniz B.Y., 2007, s.53

[5] Əl-Bəlazuri. Kitəb Futuhi-l Buldən. Azərbaycanın VII-IX əsrlər tarixinə aid çıxarışlar. Bakı: Nurlan, 2005, s.159-163; Из соч. Баладзори, с.10,12

[6] Ət-Təbəri, Tərix ər-Rüsul va-l-Müluk. Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Bakı: Nurlan, 2005, s.122

İslamı qəbul etməsində rolu olmuşdur.[1]

I fəslin III bölməsində Tiflisin Əməvilərin və Abbasilərin hakimiyyəti altında olduğu dövrdən bəhs edilir. I Muaviyənin (661-680) dövründə Həbib ikinci dəfə Tiflisi tutur və amannaməni təzələyir.[2] Amannamədə diqqəti cəlb edən nüans Tiflisdə artıq bu dövrdə yerli müsəlmanların mövcud olmasıdır. 722-723 və 729-cu illərdə bölgəyə vali təyin edilən Cərrah ibn Abdullah Tiflis xalqı ilə Həbib ibn Məsləmənin bağladığı amannamə-əhdnaməni yeniləyir və vergiləri artırır.

732-ci ildə II Mərvan Curzan üzərinə yürüş edir. Həbibin yürüşündən fərqli olaraq əhali həm ərəblərə, həm də müsəlmanlaşmağa çox ciddi müqavimət göstərir. 744-cü ildə məhz bu müqavimətə görə Mərvan Baqratlıların sığınacağı olan Ardanuç qalasını dağıdır.[3] Tiflisdə isə əksinə, hədisi gözəl bilən sünni müsəlmanlar yaşayırdılar.[4]

I fəslin IV bölməsində Tiflis əmirliyinin yaranması haqqında məlumat verilir. Xilafətdə Harun ər-Rəşiddən (786-809) sonra yaranan qarışıqlıq dövründə II Mərvanın azadlığa buraxılmış qulu Şuaybın oğlu İsmayıl Tiflisdə hakimiyyəti ələ keçirir. İsmayıl ibn Şuayb eyni zamanda gürcü mənbələrində Çahap adında xatırlanmış, Aşot Baqratlının idarə etdiyi Tayk ərazisinə hücum etmişdir.[5] Mərkəzi hakimiyyətə qarşı çıxdığı üçün xəlifə Məmun (813-833) Tayk hakimi Aşot Baqratlıya İsmayıl ibn Şuayba qarşı mübarizədə yardım etmişdir.[6]

Dissertasiyanın II fəsli **"Tiflis əmirliyi IX-XI əsrin əvvəllərində"** adlanır. II fəslin I bölməsi "Müstəqilliyin qorunub saxlanılması uğrunda mübarizə" adlanır. Tiflis əmiri Əli ibn Şuaybın və qardaşı oğlu İshaq ibn İsmayılın (817-819, 830-853) hakimiyyət illəri Tiflis əmirliyinin ən parlaq dövrü qəbul edilir. İshaqın ən böyük uğurlarından biri hakimiyyətə çıxan kimi 829/830-cu ildə Vənənd-Qars ərazisinə Bizans imperatoru Feofil (829-842) daxil olduğu zaman Katçkaqar kəndi yaxınlığında onun ordularını məğlub etməsi olub.[7]

Bəlazuri Məmuna tabe olmayan və üsyan qaldıranlar arasında İshaqın

---

[1] Gümüş N. İlk Dönem İslam.., s. 209
[2] Ət-Təbəri, Tərix ər-Rüsul va-l-Müluk.., s.122
[3] Gürcistan Tarihi. Nikoloz Berdzenişvili, Simon Canaşia [İvane Cavahişvili]. İstanbul: Sorun yayınları, 2.Baskı, 2000, s.225
[4] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas..., s.110
[5] Gürcistan Tarihi. notlar: M. F. Brosset. Ankara: Türk Tarih Kurumu Basımevi, 2003, s.215
[6] Alasania G. Gürcüler ve İslam Öncesi... s.114
[7] Степанос Таронский. Всеобщая история. Москва: 1864, c.335

da adını çəkir.[1] Xəlifə Mütəvəkkil (847-861) İshaqın artan nüfuzunun qarşısının alınmasından ötrü Buğa Türkü 852-ci ildə onun üzərinə göndərir. İshaq sağ qalmaq zəmanəti olmadığı üçün Buğanın yanına gəlmək xaricində bütün tələbləri yerinə yetirməyə söz verir.[2] Buğa bunu üsyan kimi qəbul edir və Tiflisə hücum edərək buranı yandırır, İshaqı isə edam edir.[3] Tiflisdə Şuaybilər sülaləsinə son qoyulur.

II fəslin II bölməsində diqqət daha çox Tiflis əmirliyinin Arran Məzyədi-Şeybanilərinin və Azərbaycan Sacoğullarının nüfuz dairəsində olduğu dövrə ayrılır. Tiflisdə hakimiyyətə IX əsrin 80-ci illərindən etibarən Cəfər ibn Əli (880-914) gəlir[4]. Cəfərilərin XI əsrin əvvəllərinə qədər olan əmirlərinin fəaliyyətini sikkələrlə izləmək olur.[5]

II fəslin III bölməsi "Tiflis əmirliyinin ərazisi, əhalisi və idarəetmə sistemi" adlanır. Burada Tiflisin əs-Sisəcan, Bərdə, Qəbələ və digər Arran şəhərləri ilə bir yerdə I Ərməniyyə inzibati bölgəsinə-Arrana, Curzanın isə II Ərməniyyəyə daxil olmaqla Tiflislə əlaqəsi olmadığı göstərilir.[6] Ərəblər bəzən II Ərməniyyəyə idarəçiliyi Tiflis vasitəsilə həyata keçirirdilər. Feofil üzərində qələbədən sonra xəlifə Vasiq bir müddətliyinə İshaq ibn İsmayılı Cənubi Qafqazın hakimi kimi də tanımış ola bilərdi.[7]

X əsrdə əmirliyin qərbində-Trialetidə Rati Baqvaşinin idarə etdiyi feodal qurum var idi,[8] X-XI əsrlərdə əmirliyin şimal sərhədləri bəzən Msxetaya qədər, bəzən Msxetanı da içinə alacaq dərəcədə geniş olurdu. 853-cü ildə Diqom düzənliyində Maçxan kilsəsinin divarında Tiflis əmirinin məmuru Huməd ibn Kitrin adının yazılması bu ərazilərin Tiflisə aid olduğunu göstərirdi.[9] Şərqdə əmirliyin qonşusu Şəki əmirliyi idi və sərhəd Qabırrı çayı idi.[10] Cənub və cənub-qərbdə isə Rustavi, Dumanis, Şəmşəddil, Loru torpaqları bu əraziyə daxil idi və Tiflisə tabe olan Rustavi, Dumanis və Hu-

[1] Əl-Bəlazuri. Kitəb Futuhi-l Buldən.., s.174
[2] Əl-Yaqubi. Tarix.., s.224
[3] İbn əl-Əsir. Əl-Kamil Fi-t-Tarix.Tərc. M. Əfəndizadə. B.: 1959, s.84-85
[4] Lordkipanidze M. D. Tbilisis saamiros.., s.201
[5] Джалагания И.Л. Иноземная монета в денежном обращении Грузии. V-XII вв. Тбилиси: Мецниереба. 1979 .с.63-65; Пахомов Е.А. Монеты Грузии. Тбилиси: Мецниереба. 1970, с.46-48
[6] Vəlixanlı N.M. IX-XII əsr .., s.18; İbn Xordadbeh. Kitab əl-Məsalik əl-Məmalik. Leyden: E.J.Brill. 1967, s.122
[7] Minorski V. Tiflis / İslam Ansiklopedisi. 12/1.Cilt. İstanbul: Milli Eğitim Basımevi, 1979, s.266
[8] Лордкипанидзе М.Д. История Грузии.., с.50
[9] Очерки истории Грузии (в 8-и т.). Т.II, Тбилиси: Мецниереба, 1988, с.341
[10] Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar, s.120

nanda oturan əmirlər var idi.[1] Əmirliyin ərazisində yaşayan əhali haqqında fikirlər müxtəlif cürdür. "Moksevai Kartlisai" (Gürcüstanın dönüşü) və Leonti Mrovelinin "Kartli çarlarının həyatı" əsərlərində bu ərazilərdə yaşayan buntürklərdən və döyüşkən hon tayfalarından danışılır.[2] Herodotda "iyurk",[3] Pomponi Melada skiflərin arasında "turkae",[4] Romalı Plinidə sarmatlardan birini "turkae"[5] adları qeyd edilməsi türk adının gürcü mənbələrində anaxronizm olmadığını göstərir. Buntürk-sak-skif bağlantısı özünü yer adlarında və arxeoloji materiallarda da göstərir.[6] Eyni zamanda bu ərazilər Arrana-Albaniyaya aid olduğu üçün albanlarla bağlı bir sıra yer adlarına rast gəlmək olur. Albani, Alonqverdi, Alaverdi yaşayış məntəqələri, Alvani düzü, Alpani toponimləri alban varlığının isbatıdır.[7] Eyni zamanda Tianetidə və Axalsıxda Qarqar adlı çay və Qarqaris adlı dağ da yenə belə uyğunluqlardandır.[8]

Sabir və barsillərin də adları ilə bağlı toponimlərə rast gəlinməsi şübhəsiz onların da bölgənin əsas sakinlərindən olduğunu deyir. Onoquris, Asquri, Azqur, Onqor, Akatzir (Ağacəri), Abdallı yer adları isə sabirlərin əvəzlədiyi hun-onoqur tayfaları ilə əlaqələndirilən toponimlərdir.[9] Bunu da qeyd etmək lazımdır ki, müasir Gürcüstan ərazisində və ümumiyyətlə Qafqazda o qədər çox türk məskunlaşmışdı ki, iberlər yaşayan ərazilərdə istifadə edilən altı dildən biri məhz xəzər dili idi.[10] Tiflis yaxınlığında Balaçaur, Adıgendəki Balacur kəndi, Kazareti məntəqəsi xəzərlərlə bağlıdır.[11] Sonrakı dövrdə oğuzlar və qıpçaqlar bu torpaqlara köçərək türklərin sayını çoxalt-

---

1 Очерки истории Грузии.., с.341
2 Мровели Леонти. Жизн Картлийских царей, с.27
3 Сумбатзаде А.С. Азербайджанцы ..., с.76
4 Алиев К.Г. Античные источники по истории Азербайджана, с.86; Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. В 2-х тт. Том II. Вып. 1-й. С-Пб.: 1904, с.119
5 Известия древних писателей греческих.., с.180; Сумбатзаде А.С. Азербайджанцы .., с.76
6 Alasania G. Gürcüler ve İslam öncesi.., s.9-10
7 Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т. I. Б.: Элм, 1991, с.67
8 Məmmədov N.G. Azərbaycanın yer adları (oronimiya). B.: Azərnəşr, 1993, s.138
9 Yenə orada, s. 126; Nuriyev E.B. Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası. B.: Elm, 1989, s.36
10 Alasania G. Gürcüler ve İslam Öncesi.., s.10; Hacıyev F.V. Gürcüstan coğrafyasında eski türkler: Buntürklerden Karapapaklara / I Uluslararası Uzak Asya'dan Ön Asya'ya Eski Türkçe Bilgi Söleni, Afyonkarahisar, 18-20 Kasım 2009, s.299
11 Məmmədov N.G. Azərbaycanın yer adları.., s.130, s. 160; Сумбатзаде А.С. Азербайджанцы.., s.125

mışlar. Bölgədə iberlərin, aristokratiyanın içində ərəblərin yaşadığı da göz ardı edilməməlidir.

II fəslin IV bölməsində Tao-Klarcet və Abxaz çarlıqları ilə münasibətlər araşdırılır. XI əsrin 30-cu illərin əvvəllərində Tiflis əmiri III Cəfər ibn Əli (1011-1046) Şəddadilərdən qorunmaq məqsədi ilə Eklese yaxınlığında I Fəzluna (985-1031) qarşı toplanan xristian qoşununa qoşulur və burada təxminən 1032-cu ildə eristavlar Liparit və İvane Abazasdze tərəfindən əsir alınır. III Cəfər azad edilsə də 1037/8-ci ildə Şəki məliyi Qağiklə birləşən IV Baqrat 2 il Tiflisi mühasirədə saxlayır.[1] 1046-cı ildə III Cəfər vəfat etdikdən sonra Tiflisdə Cəfərin oğulları Mənsur və Əbulhicanın hakimiyyət uğrunda mübarizəsi başlayır. Bu mübarizədə qardaşlardan birinin zaman-zaman IV Baqrata müraciət etməsi ucbatından Tiflisin sağsahil hissəsi 1046, 1048, 1062-ci illərdə IV Baqratın nəzarətinə keçir, solsahil isə toxunulmaz qalır.

III fəsil **"Tiflis əmirliyi XI-XII əsrin əvvəllərində"** adlanır. III fəslin I bölməsində səlcuq axınlarından danışılır. 1063-1065-ci illərdə Alp Arslan Qafqaza və Ruma hücum edir. Baqrat Alp Arslanın qarşısından qaçır. 1064/5-ci ildə Alp Arslan Anini tutur və Şəddadi Əbul Əsvar Şavurun oğlu Mənuçöhrə verir.[2] Alp Arslan tutduğu digər qalaları da Şavurun idarəsinə verir. Mərkəzi Ani olan Şəddadilərin ikinci qolunun əsası qoyulur.[3]

1067-ci ildə Alp Arslan Gəncəyə gəlir. Onu görmək üçün Tiflis əmiri Cəfər də Gəncəyə gəlir.[4] Mənbəyə əsasən bu Cəfərin III Cəfərin hansı oğlu olduğunu bilmək mümkün olmur. Alp Arslan Tiflisə daxil olur, burada böyük came inşa etdirir, Tiflis əmirləri Əbulhica və Mənsuru həbs edərək şəhəri Şəddadi II Fəzluna verir.[5] II Fəzlun 1069-cu ildə Muxnarda IV Baqrata əsir düşür, lakin, IV Baqrat Tiflisə girə bilmir, çünki, Fəzlunun yoxluğunda kimsə özünü əmir elan etmişdi və Tiflis müqavimət göstərirdi. Belə olan halda IV Baqrat Dumanisdə olan Sitilarabı tapdı və Tiflis idarəsi ona həvalə edildi.[6]

II bölmədə Məlikşahın Qafqaz siyasəti araşdırılır. Məlikşah 1075-76-ci illərdə Arranın idarəsini Sav Təginə verdi. Bu səfər ərəfəsində Səlcuqlu or-

---

[1] Летопись Картли.., с.66-67
[2] Yenə orada, s. 74
[3] Minorsky V. Studies in Caucasian History. Cambridge Oriental Series, No.6, London: Taylors Foreign Press, 1953, p.58-59
[4] Bedirhan Y. Kafkasya ve Büyük Selçuklu Devletinin Kafkasya Politikası.Doktora tezi. Konya, 1999, s.104-105
[5] Minorsky V. Studies in Caucasian History.., s.23, 65
[6] Летопись Картли.., с.75

dusu Tiflisə daxil oldu.[1] 1084-cü ildə Qafqaz Azərbaycan məlikliyində birləşdirildi və bütünlükdə Azərbaycan adlandırılmağa başlanıldı.[2] Bu dövrlər arasında (1075-1084) Tiflis əmirliyində sülalə və əmir hakimiyyətinə son qoyulur.

III fəslin III bölməsində IV Davidin islahatları və ilk işğalları haqqında, xaç yürüşlərinin bölgədə meydana gətirdiyi dəyişikliklər və səlcuqluların zəifləməsi haqqında, bunların Tiflis əmirliyinə təsiri haqqında danışır.

IV David (1089-1125) islahatları ilə "Qurucu" ləqəbi alır. Ətrafdakı xristian mülkləri birləşdirməyə nail olan David Tiflisi mühasirəyə salmağa bacardı. Bu uğurlarında əsas rollardan birini onun ölkəsinə qıpçaqları dəvət etməsi və qıpçaq hökmdarı Atrakın qızını alaraq onunla qohum olması idi. Nəticədə ölkəyə 40-45 min ailə qıpçaq gəlir. IV Davidin 60 minlik ordusunun 40 mini qıpçaq idi, özünün də 5000 nəfər qıpçaqlardan ibarət şəxsi qvardiyası var idi.[3]

Dissertasiyanın IV fəsli **"Tiflis əmirliyinin IV David tərəfindən işğalı və Tiflis bölgəsi işğaldan sonra. Mədəniyyət"** adlanır. Bu fəsil 1121-ci ildə IV Davidin Hunanı və Bərdəni qarət etməsi ilə başlayır. Təşvişə düşən Gəncə, Dumanis və Tiflis ağsaqqalları Səlcuqlu sultanı Mahmuda müraciət edirlər.[4] Qonşu müsəlman əmirlər 30 minlik ordu ilə IV Davidin üzərinə yürüş edir, lakin, Davidin 15 mini qıpçaqlardan ibarət 56 minlik ordusu Didqori yaxınlığında onların qarşısını kəsir. 200 nəfərlik qıpçaq dəstəsi müsəlmanları aldadaraq onların arasında çaxnaşma salmağa və məğlub etməyə nail olur.[5] 1122-ci ildə IV Davidin ordusu Tiflisi mühasirə edir. Ümumi qarətdən sonra digər müsəlman şəhərlərini tutmağa nümunə olacaq deyə Tiflisdə qarətlər dayandırılır. Müsəlmanlara bir sıra dini hüquqlar verilir, vergiləri xristian və yəhudilərin vergilərindən daha az nəzərdə tutulur.[6] IV David cümə günləri oğlu Demetre ilə birgə məsciddə oxunan xütbə və Quranı dinləməyə gəlir, gedərkən müəzzin və xətibə qızıllar verir.[7] Bununla yanaşı IV David qonşu zəifləmiş müsəlman şəhərlərinə tez-tez qarətçi yü-

---

[1] Gümüş N. Büyük Selçuklu-gürcü ilişkileri // Türkler, 2002, IV cilt, s.716
[2] Bedirhan Y. Kafkasya ve Büyük Selçuklu.., s.120; Bedirhan Y. Ortaçağda Kafkasyada Selçuklularla Gürcüler Arasında Siyasi Hakimiyet Mücadelesi // Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü dergisi, 2000, Sayı: 6, s.170-171
[3] Житие царя царей Давида// Символ, 1998, № 40, с.285
[4] Yenə orada, s. 288
[5] İbn əl-Əsir.Əl-Kamil Fi-t-Tarix. B.: Az. SSR EA Nəşriyyatı, 1959, s.149
[6] Minorsky V. Caucasica in the History of Mayyafariqin // Bulletin of the School of Oriental and African Studies, 1949, Vol. 13, no. 1, p.32-33
[7] Месхиа Ш.А. Дидгорская битва. Тбилиси: Мецниереба, 1974, с.102

rüşlər təşkil edir, Tiflisə əsirlər gətirir, müsəlman əhalisi isə onları azad etmək üçün külli miqdarda pul xərcləyirdi ki, nəticədə bu Tiflis əhalisinin müflisləşməsinə və şəhəri tərk etməsinə səbəb olurdu.[1]

1226-cı ildə Tiflisi Xarəzmşah Cəlaləddin müsəlmanların müqavimət göstərməməsinə görə rahat ələ keçirir. Xarəzm ordusunun sonrakı özbaşınalığı tiflisliləri peşman edir.[2] 1227-ci ildə Cəlaləddinə müxalif qüvvələr, əsasən xristianlar Tiflisə hücum edir və şəhəri tamamilə yandırırlar. Bu qırğın o qədər şiddətli olur ki, Cəlaləddin Tiflisə qayıdanda şəhərdə bir nəfər də olsun adam görmür.[3] Bu Tiflisdə müsəlman varlığına olduqca böyük bir zərbə vurur.

IV fəslin III bölməsi qarşısına vəzifə kimi Tiflisi İslam mədəniyyətinin mühüm mərkəzlərindən biri kimi öyrənməyi qoyub. Tədqiqat nəticəsində İslamı qəbul etmiş gürcülərin bu dövrdə əl-Kurci,[4] Tiflisli alimlərin isə ət-Tiflisi nisbəsi qəbul etdiyi müşahidə edilmiş və bu da onların etnik cəhətdən bir-birindən fərqli olduğunu isbat edir. Mənbəyə əsasən Tiflisdən çoxlu hədis elmi ilə məşğul olanlar çıxıb.[5] Şübhəsiz Tiflisdəki alimlərdən ən məşhuru Əbul Fəzl Hubeyş ibn İbrahim əl-Mutəbbib Tiflisi olub. O, XII əsrdə yaşamış məşhur həkim, əczaçı, filoloq, astronom və ilahiyyatçı idi. Onun 25 əsəri müəyyən edilib: 10 əsər farsca, qalanlar ərəbcədir.[6]

Tiflis müsəlmanları işğaldan sonra gürcü xalqının mədəni inkişafına da təsir göstərmişlər. Belə ki, gürcü hökmdarları uzun müddət sikkə zərbində ərəb əlifbasından istifadə etmişlər.[7]

Heç şübhə yoxdur ki, Tiflisdə geniş camilər, darüşşəfalar, xanəgahlar, mədrəsələr, elm külliyyələri də mövcud olmuşdur. Mənbələrdə buna işarə vardır.[8] Tiflis əmirlərinin sarayının hazırkı botanika bağında olduğu təxmin edilir.[9] Lakin, abxaz-iberlərin Ərciş və Əxlata yürüşləri zamanı kitabxana-

---

[1] Minorsky V. Caucasica in the History of Mayyafariqin.., p.34
[2] Gümüş N. Celaleddin Harzimşahın Gürcistan seferleri // EKEV Akademi dergisi, Güz 2006, Yıl: 10, sayı: 29, s.166
[3] İbn əl-Əsir.Əl-Kamil Fi-t-Tarix. B.: 1959, s.198-199
[4] Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. B.: Şərq-Qərb, 2010, s.122, s.161
[5] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında, s.110; Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-ənsab" əsəri.., s.106
[6] İzgi C. Hubeyş et-Tiflisi / Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, cilt 18, İstanbul, Türkiye Diyanet Vakfı Yayınları, 1998, s.268
[7] Пахомов Е.А. Монеты Грузии, с.75
[8] Садраддин Али ал-Хусайни. Ахбар ад-Даулат ас-Селджукиййа. Москва: Наука, 1980, с.55
[9] Лордкипанидзе М.Д. Тбилиси (IV- начало XII в.), с.34, 50

ları yandırdığı kimi[1] Tiflisi tutduqları zaman da buradakı bütün elm ocaqlarını və memarlıq abidələrini məhv etmişlər.

**Nəticədə** tədqiqatın yekunu olaraq əldə edilmiş elmi qənaətlər ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Tiflis əmirliyində idarəetmə sistemi / AMEA Tarix İnstitutunun Elmi əsərləri. Bakı, 2010, cild 34, s.22-25
2. XI əsrin sonu – XIII əsrin əvvəllərində Azərbaycanın Şimal-Qərb torpaqları gürcü mənbələrinə əsasən // AMEA aspirantlarının elmi konfransının materialları, may 2010, s. 338-344
3. Tiflis və ətraf ərazilərin etno-siyasi mənzərəsi (VII-IX əsrlər) / AMEA Tarix İnstitutunun Elmi əsərləri. Bakı, 2010, cild 35, s.48-56
4. Tiflis müsəlman əmirliyi // AMEA aspirantlarının elmi konfransının materialları, may 2011, s. 183-188
5. VIII-XIII əsr Tiflis şəhəri və ətrafı İslam mədəniyyətinin mühüm mərkəzlərindən biri kimi // Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı, Materiallar, Qafqaz Universiteti, 25-26 aprel 2013, s.168-169
6. Tiflis emirate until Jafarids dynasty (The end of the VIII-X cc.) / The Caucasus and the World - International Scientific Journal (Кавказ и Мир – Международный научный журнал). Tbilisi, 2014, №18, p. 123-129
7. VIII-XIII əsr Tiflis şəhəri və ətrafı İslam mədəniyyətinin mühüm mərkəzlərindən biri kimi / Gəncə Dövlət Universiteti, Elmi xəbərlər. Fundamental, Humanitar və Təbiət elmləri seriyası, 2014, №3, s.216-222


[1] Bedirhan Y. Kafkasya ve Büyük Selçuklu Devletinin Kafkasya Politikası. Doktora tezi. Konya, 1999, s.208

**Р.А.Мустафа**

## Тифлисский эмират

## РЕЗЮМЕ

Представленная диссертация посвящена исследованию политической, социально-культурной истории Тифлисского эмирата и его отношений с соседними странами. Диссертация состоит из введения, четырех глав, заключения, библиографии, хронологических таблиц, карт и иллюстраций.

Во введении обосновываются актуальность темы, ее изученность, определяются цели и задачи исследования, научная новизна, а также раскрывается теоретическое и практическое значение.

В первой главе описываются первые набеги арабов на Тифлис и близлежащие земли, анализируются арабская система управления и образование Тифлисского эмирата. В этой главе также исследуются границы, историческая география, этнополитическая ситуация в данном регионе до нашествия арабов.

Во второй главе описываются династии, управлявшие Тифлисским эмиратом, территория, численность населения, система управления и связи Тифлисского эмирата с соседними государствами.

В третьей главе рассматриваются появление на Южном Кавказе сельджукских тюрков, осуществленные ими изменения в масштабе всего региона, затронувшие Тифлисский эмират. В конце главы раскрываются ослабление Великой Сельджукской империи, усиление абхазско-иберского царя Давида IV, отрицательное воздействие его политики на Тифлисский эмират.

Четвертая глава посвящена оккупации Тифлиса Давидом IV, его отношению к тюрко-мусульманскому населению, а также культурному развитию Тифлисского эмирата. В конце диссертации даются общие итоги исследования.

**R.A.Mustafa**

## Tiflis Emirate

## SUMMARY

The dissertation work is dedicated to study of political, socio-cultural history of Tiflis Emirate, including its relations with neighboring countries.

The dissertation work consists of its introduction, four chapters, summary, list of reference, excerpt of used sources, chronological table, table of scholars and Emirs from Tiflis, maps and illustrations.

Introduction substantiates urgency of the subject; studiability is analyzed, tasks and targets of the study is set, scientific novelty is demonstrated, also theoretical and practical value of the theme is elucidated.

The first chapter of the dissertation talks about Arab-Muslims attacks to Tiflis region, government system established by Caliphat and foundation of Tiflis Emirate. Borders, historical geography, political and ethnicity of Tiflis region before Arabic campaign is researched as well.

In the second chapter the question of reigning dynasties, territory of the Emirate, population and foreign relations with neighboring states is studied.

The third chapter tells about coming of Seljuk Turks to South Caucasia and resulted changes, effects of these changes to Tiflis Emirate. At the end of the chapter weakening of Great Seljuk Empire resulting Abkhaz-Iberian king IV David's upsurge and its negative effects upon Tiflis Emirate is researched.

The fourth chapter is dedicated to research of Georgian invasion of Tiflis Emirate and the situation afterwards, including exploration of culture of Tiflis and nearby area and people of Tiflis.

In the conclusion are summarized the results of the research. The dissertation work is finalized with the references excerpts, maps, chronological table and lists.

Əla növ kağız, formatı 60x84 - 1/16
Tirajı 100 nüsxə
AMEA TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**МУСТАФА РАШАД АЗИЗ оглу**

# ТИФЛИССКИЙ ЭМИРАТ

**Специальность 5503.02- Отечественная История**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ— 2015**